ცესკო
საქართველოს საარჩევნო ადმინისტრაცია

საარჩევნო სისტემების განვითარების, რეფორმებისა და სწავლების ცენტრი

# Məntəqə seçki komissiyası sədrinin yaddaş təlimatı

2016

Sakrebulonun ara seçkiləri



MÜNDƏRİCAT


Məntəqə seçki komissiyasının sədrinin səlahiyyətləri .. 1

Səsvermədən bir gün əvvəl (21 may) Məntəqə seçki komissiyası sədrinin səlahiyyətləri .................................. 3

Səsvermə günü (22 may) Məntəqə seçki komissiyası sədrinin səlahiyyətləri ................................................ 5

# Məntəqə seçki komissiyasının sədrinin səlahiyyətləri

## 1. Məntəqə seçki komissiyasının iclası ilə bağlı səlahiyyətlər:

- Komissiya iclasını çağırırsınız (Seçki məcəlləsi- maddə 8.2);
- Məntəqə seçki komissiyasının iclaslarına rəhbərlik edirsiniz (Seçki məcəlləsi- maddə 27.1.b);

## 2. İnzibati səlahiyyətləri:

- Komissiya katibinə və komissiyanın başqa üzvlərinə tapşırıq verə bilərsiniz(Seçki məcəlləsi- maddə 27.1.e);
- Əmr vermək hüququna maliksiz  (Seçki məcəlləsi- maddə 30.1.q);
- Mərtəqə seçki komissiyasına daxil olan sənədləri və Məntə qə seçki komissiyasının adına  gəlmiş korrespondensiyanı qəbul edir və öz qətnam-ənizlə bölüşdürürsünüz (Seçki məcəlləsi - maddə 27.1.q);
- Dairə seçki komissiyası qarşısında  sənədlər, inventar və başqa materialların qəbul edilməsində, saxlanılması və təyinatına uyğun verilməsində məsuliyyət daşıyırsınız (Seçki məcəlləsi - maddə 27.1.d; maddə63.6).
- Kütləviliyi  təmin etmək məqsədilə nəzərə alın ki, seçki məntəqədə nəzərəçarpan yerdən asılmalıdır (Seçki məcəlləsinin reqlamenti - maddə 8):
  - ☐ Komissiyanın kontakt telefon (faksı) nömrəsi və başqa rekvizitləri;
  - ☐ Məntəqə seçki komissiyasının fəaliyyətinə aid seçki administrasiyasının hüquqi aktları;
  - ☐ Komissiya və komissiya sədrinin səlahiy-yətləri;

- Seçici siyahıları, seçici siyahısına dəyişikliklər daxil etmənin və qeyri-dəqiqlikləri şikayət etmək qayda və müddətini.

**DİQQƏT!**

- Səsvermə günününə qədər ən geci iki gün qalmış dəqiqləşdirilmiş siyahıların son versiyası sizə təqdim olunacaq (seçki komissiyası üçün ayrılmış versiya – masa siyahısı və kütləvi informasiya vasitələri üçün divar siyahısı) (Seçki məcəlləsi- maddə 31.11);
- Kütləvi informasiya üçün ayrılmış divar siyahısının ilkin versiyasını götürməli və dəqiqləşdirilmiş siyahını eyni yerdən asmalısınız.

## Səsvermədən bir gün əvvəl (21 may) Məntəqə seçki komissiyası sədrinin səlahiyyətləri

### 1. Səsvermə binasının təşkili ilə əlaqədar səlahiyyətlər:

- Səsvermə binasının təşkili üçün məsuliyyət daşıyırsınız. Nəzərə alın (Seçki məcəlləsi - maddə 58.4):
  - Səsvermə binasında gizli səsvermə kabinələri quraşdırılmalıdır (hər 500 seçici üçün ən azı bir kabinə nəzərdə tutulmalıdır) Hər kabinədə bir qələm olmalıdır;
  - Seçicilərin qeydə alınması üçün yer ayrılmalı və qeydiyyatçıların sayına müvafiq olaraq masalar yerləşdirilməlidir;
  - Şəffaf seçki qutusu nəzərə çarpan yerdə qoyulmalıdır;
  - Xüsusi zərflər üçün seçki qutusunun yaxınlığında masa yerləşdirilməlidir.
- Səsvermə binasında nəzərə çarpan yerdə asılmalıdır (Seçki məcəlləsi – maddə 58.4.d; 58.5):
  - Seçicilərin vahid siyahısının ictimai informasiya üçün aid olan versiyası (divar siyahısı);
  - Seçicilərin xüsusi siyahısının ictimai informasiya üçün aid olan versiyası (divar siyahısı);
  - Aparılası seçki qutusunun ictimai informasiya üçün aid olan versiya sı(divar siyahısı);
  - Namizədlərin siyahıları;
  - Səsvermə təlimatı və MSK tərəfindən müəyyən olunmuş seçki bülletenlərinin doldurulması qaydası;
  - Hansı bülletinin batil hesab olunması barədə qanundan çıxarış;
  - Səsvermə nəticələrinin nümayiş protokolu.

## 2. Seçki sənədlərinin qəbulu ilə əlaqədar səlahiyyətlər:

Yadınızda saxlayın: seçkilərin başlanmasına ən azı 12 saat qalmış Məntəqə seçki komissiyasından seçki bülletenlərini və xüsusi zərfləri almalısınız. Təhvil alarkən **mütləq sayın** və verilmiş seçki bülletenlərinin və xüsusi zərflərin miqdarını qəbul-təhvil protokoluna daxil edilmiş göstəricilərlə müqayisə edin (Seçki məcəlləsi – maddə 63.9-11). Yoxlayın ki, bülletendə sizin seçki məntəqəsinin və seçki dairəsinin nömrəsi olsun.

## Səsvermə günü (22 may) Məntəqə seçki komissiyası sədrinin səlahiyyətləri

### saat 07:00-08:00

- ☐ Saat 07:00 seçki məntəqəsini açın, telefonla Dairə Seçki Komissiyasına seçki məntəqəsinin açılması və komissiya üzvlərinin kvorumu barədə (7 üzv) məlumat verin (Seçki məcəlləsi –maddə 61.1).
- ☐ Səsvermə gününün Qeydlər kitabını, Qeydiyyat jurnalını, səsvermə nəticələrinin yekun protokolunu və nümayiş protokolunu (nəzərə çarpan yerdən asılır) katibə təhvil.
- ☐ Səsvermə binasında olmaq səlahiyyətinə malik şəxslərin akreditasiya vərəqlərini yoxlayın (şəxsiyyət vəsiqəsi ilə güvvədədir).
- ☐ Hamının gözü qarşısında Məntəqə seçki komissiyasının möhürünün yerləşdiyi zərfin bütövlüyünü yoxlayın və onu açın (möhürlərin nömrəsini Qeydlər kitabının 9-cu səhifəsində əks olunmalıdır) (Seçki məcəlləsi – maddə 61.2.b).
- ☐ Aparılası seçki qutusunu daşıyacaq 2 seçki komissiyası üzvünü müəyyənləşdirmək üçün püşkatma keçirin, burada yalnız partiyalar tərəfindən təyin olunmuş komissiya üzvləri iştirak edir (Seçkiməcəlləsi –maddə 61.2.d).
- ☐ Məntəqə seçki komissiyası üzvləri arasında qalan funksiyaların (seçicilər axınının nizamlayıcısı, seçicilərin qeydiyyatını aparan, seçki qutusuna və zərflərə nəzarət komissiya üzvləri) bölüşdürülməsi üçün püşkatma keçirin (Seçki məcəlləsi –maddə 61.2.e).
- ☐ Şikayətlərin qeydə alınması prosesini müşahidə etmək məqsədilə, seçki məntəqəsində olan seşki subyektləri nümayəndələrindən ən azı iki

nümayəndəni aşkar etmək üçün püşkatma keçirin. Yadınızda saxlayın, püşkatma ilə seçilmiş nümayəndələr və komissiyanın katibi eyni partiya tərəfindən təqdim edilmiş şəxs ola bilməz (Seçki məcəlləsi –maddə 61.5).

- ☐ Komissiya katibindən xahiş edin ki, seçicilərin sayını seçicilərin vahid siyahısında, xüsusi siyahıda, eləcə də aparılası qutunun siyahısında elan etsin. (Seçki məcəlləsi –maddə 61.6.a).
- ☐ Komissiya katibindən xahiş edin ki, alınmış seçki bülletenlərinin və xüsusi zərflərin sayını elan etsin (Seçki məcəlləsi –maddə 61.6.b).
- ☐ Yoxlayın ki, seçki qutusu boşdur və əsas və aparılası seçki qutularını fərdi nömrəyə malik möhürlə möhürləyin(Seçki məcəlləsi –maddə61.6.q).
- ☐ Hər bir qeydiyyatçıya verin: seçicilərin siyahısını (eləcə də xüsusi siyahını –qeydiyyatçılardan birinə), bülletenlərin bir-bir bloknotonu, markirovka mayesi, qeydiyyatçının möhürü (möhürün nömrəsini səsvermə günü qeydiyyat kitabının 9-cu səhifəsində qeyd edin) (Seçki məcəlləsi –maddə 61.7).
- ☐ Axının nizamlayıcısına markirovkanı yoxlayan ultrabənövşəyi fənər verin Seçki qutusuna və zərflərə nəzarət edən komissiya üzvünə xüsusi zərflər və əsas seçki qutusunu təhvil verin;
- ☐ Komissiya üzvlərinə materialların verilməsindən dərhal sonra, səsvermə başlananadək Məntəqə seçki komissiyası katibi ilə birlikdə (birinci seçicinin göstəricilərindən başqa) yoxlama vərəqlərinin özünün surətini çıxaran formanı doldurun. Diqqət yetirin ki, komissiyanın bütün üzvləri yoxlama vərəqinə imza atsınlar (Seçki məcəlləsi –maddə 61.10).

## Saat 08:00-dan

- ☐ Seçki məntəqəsinə birinci seçici gələn kimi qeydiyyatdan keçir, bülleten götürür və bundan sonra komissiya katibinə göstəriş verin ki, birinci seçicinin göstəricilərini yoxlama vərəqinə daxil etsin. Yoxlama vərəqinin bir nüsxəsini əsas seçki qutusuna, ikinci nüsxəsini aparılası seçki qutusuna (onunmövcudluğu təqdirdə) yerləşdirin, üçüncü yoxlama vərəqini isə saxlayın (Seçki məcəlləsi – maddə 61.10).

- ☐ Birinci seçici qeydiyyatdan keçdikdən sonra Dairə Seçki Komissiyasına telefon vasitəsilə qutunun möhürlənməsi, yoxlama vərəqənin qutuya atılması, komissiyanın xüsusi möhürünün və qeydiyyat möhürlərinin birinci surətinin çıxarılması və surətin nümunəsinin səsvermə gününün Qeydlər kitabında əks olunması barədə məlumat verin.

## Saat 09:00-dan

- ☐ Saat 09:00-dan püşkatama yolu ilə müəyyənləşdirilmiş komissiyanın 2 nəfər üzvünə aparılası seçki qutusunun vasitəsilə səsvermə keçirməyi həvalə edin və onlara verin (Seçki məcəlləsi – maddə 66.3):
  - ☐ Aparılası seçki qutusunun siyahısını;
  - ☐ Seçicilər qeydiyyatçısı tərəfindən imza və xüsusi möhürlə təsdiq olunmuş lazımi sayda seçki büllütenini;
  - ☐ Xüsusi zərfləri;
  - ☐ Yoxlama vərəqi yerləşdirilən möhürlənmiş aparılası seçki qutusunu.

## Göstərilən saatlarda

☐ **10:00**

☐ **12:00**

☐ **15:00**

☐ **17:00**

Qeydiyyatçılardan xahiş edin ki, səsvermə prosesinə mane olmadan, seçicilərin siyahılarında seçicilərin imzalarını və onlar tərəfindən verilmiş bülletenlərin miqdarını yenidən saysınlar (Komissiyanın sədrinə verilmiş korlanmış bülletenlərin miqdarı daxil olmaqla).

Göstəricilərin düzgünlüyünü növbəti düstur əsasında **yoxlayın**: verilmiş bülletenlərin sayı – korlanmış bülletenlərin sayı = seçicilərin imzalarının sayı.

Əgər göstəricilər arasında fərq aşkar edilərsə, qeydiyyatçı dərhal izahat yazmalıdır, bu izahat isə səsvermə nəticələrinin yekun protokoluna əlavə olunmalıdır.

Hər bir qeydiyyatçıdan alınmış imzaları saat 10, 12, 15, 17 cəmləşdirin və göstəriciləri **dərhal** Dairə Seçki Komissiyası tərəfindən verilmiş nömrəyə qısa mətnli mesaj (sms) göndərin.

**Saat 12:00 və 17:00-da** Qeydiyyatçı ilə birlikdə seçicilər siyahısında sayılmış seçicilərin imzalarının sayını katibə Qeydlər kitabına və Məntəqə seçki komissiyasının nümayiş protokoluna daxil etdirin (Seçki məcəlləsi - maddə 65.6).

## Saat 20:00-dək

☐ Aparılası seçki qutusu ən geci saat 20:00-dək seçki məntəqəsinə qaytarılmalıdır. (Seçki məcəlləsi maddə66.1).

## Qeydiyyatçılardan aldığınız məlumatı cədvəldə əks edin

| Göstəriciləri yoxlayın | | Qeydiyyatçı I | II | III | IV | V | SMS-lə göndərin |
|---|---|---|---|---|---|---|---|
| Saat 10:00 | Verilmiş bülletenlər | | | | | | İmzaların cəmi ⇩ |
| | Korlanmış bülletenlər | | | | | | |
| | İmzaların sayı | | | | | | |
| Saat 12:00 | Verilmiş bülletenlər | | | | | | İmzaların cəmi ⇩ |
| | Korlanmış bülletenlər | | | | | | |
| | İmzaların sayı | | | | | | |
| Saat 15:00 | Verilmiş bülletenlər | | | | | | İmzaların cəmi ⇩ |
| | Korlanmış bülletenlər | | | | | | |
| | İmzaların sayı | | | | | | |
| Saat 17:00 | Verilmiş bülletenlər | | | | | | İmzaların cəmi ⇩ |
| | Korlanmış bülletenlər | | | | | | |
| | İmzaların sayı | | | | | | |

## Saat 20:00 –dan qutunun açılmasına qədər

Saat 20:00-da seçkilərin başa çatdığını elan edin. Komissiya üzvlərindən birinə növbədə dayanmış seçiciləri saymağı həvalə edin. Səsvermə başa çatdıqdan sonra seçki məntəqəsinin qapısını bağlayın və qutunun kəsiyini möhürləyin (Seçki məcəlləsi- maddə 65.8).

☐ Səsvermə başa çatdıqdan sonra hər bir qeydiyyatçının yanına gedin, göstəriş verin ki, (səsvermə başa çatdırılanadək) onlar tərəfindən yazılmış izahatlarda (onun mövcudluğu təqdirdə) həmin göstəricilərin nəzərə almaqla) hesablasınlar:

**Verilmiş bülletenlərin miqdarı** − **Korlanmış bülletenlərin miqdarı** = **Seçicilərin imzalarının miqdarı**

**Əgər** bərabərlik baş tutmursa, qeydiyyatçıya yenidən saymağı və miqdarını dəqiqləşdirməyi həvalə edin. Əgər bərabərlik yenə də baş tutmasa, qeydiyyatçıdan izahat yazmağı (səbəbi göstərilməklə) xahiş edin, bunu isə yekun protokoluna əlavə etməlisiniz.

Hər bir qeydiyyatçıdan alınmış imzaları saat 20-də cəmləşdirin və göstəriciləri **dərhal** Dairə Seçki Komissiyası tərəfindən verilmiş nömrəyə qısa mətnli mesaj (SMS-lə ) vasitəsilə göndərin.

---

☐ Yuxarıda göstərilən məlumatları müəyyən etdikdən sonra, qeydiyyatçıları səsvermədə iştirak edən seçicilərin bərabərlik məlumatlarını bütün növ siyahıda saymağa tapşırıq verin.

## Qeydiyyatçılardan aldığınız məlumatı cədvəldə əks edin

| Göstəriciləri yoxlayın | | Qeydiyyatçı I | II | III | IV | V | SMS-lə göndərin |
|---|---|---|---|---|---|---|---|
| Sonuncu (Saat 20:00.) | Verilmiş bülletenlər | | | | | | İmzaların cəmi ⇩ |
| | Korlanmış bülletenlər | | | | | | |
| | Seçkilərdə iştirak edən qadınların sayı | | | | | | |

---

☐ Püşkatma yolu ilə ən azı 3 sayıcı seçin. Əgər müşahidəçilər öz aralarında razılığa gələ bilmirlərsə, onlardan iki nəzarətçini püşkatmayolu ilə seçin (Seçki məcəlləsi – maddə 67.1).

- ☐ Əgər müşahidəçilər seçki bülletenlərinin hesablama prosesinə nəzarətçi şəxsləri seçə bilmədikdə, onda müşahidəçilər arasında püşkatma yolu ilə 2 nəzarətçi seçin (Seçki məcəlləsi –maddə 67.1).
- ☐ Püşkatma yolu ilə 2 nəfərdən çox olmayaraq, nümayəndə seçin, bunlar isə komissiya üzvlərindən püşkatma yolu ilə seçilmiş sayıcılarla birlikdə həqiqi və batil olunmuş seçki bülletenlərinin hesablanması prosesində iştirak edirlər (Seçki məcəlləsi–maddə 67.2).
- ☐ Sayıcılara göstəriş verin ki, seçicilərin vahid siyahısında, xüsusi siyahıda və aparılası seçki qutusunun siyahısında səsvermədə iştirak edən seçicilərin ümüumi miqdarını saysınlar(Seçki məcəlləsi–maddə 67.3).
- ☐ Komissiya katibinə göstəriş verin ki, seçicilərin masaüstü, xüsusi və aparılası seçki qutusunun siyahıları ayrı-ayrılıqda möhürlənsin (Seçki məcəlləsi –maddə 67.3).
- ☐ Sayıcılara göstəriş verin ki, istifadə olunmamış və korlanmış seçki bülletenlərini ayrı-ayrılıqda möhürləsinlər(Seçki məcəlləsi –maddə 67.4).
- ☐ Möhürlənmiş zərfin üzərində məntəqənin adını, nömrəsini, seçki sənədlərinin növünü yazın və sayıcılarla birlikdə imzalayın(Seçki məcəlləsi –maddə 67.5).

## Seçki qutusunun açılması, səsvermə nəticələrinin yekun protokolunun doldurulması

- ☐ Seçki qutusunun, eləcə də aparılası seçki qutusunun, möhürünün bütövlüyünü yoxlayın (Seçki məcəlləsi – maddə 68.1).
- ☐ İlk növbədə, aparılası seçki qutusunu (onun mövcudluğu təqdirdə) açın. Sayıcılar seçki

qutusunda yoxlama vərəqinin mövcudluğunu yoxlayırlar və komissiyada müqayisə məqsədilə saxlanılmış yoxlama vərəqinə oxşarlığını müəyyən edirlər. (Seçki məcəlləsi –maddə 68.4).

- ☐ Əsas seçki qutusunu açın. Sayıcılar seçki qutusunda yoxlama vərəqinin mövcudluğunu yoxlayırlar və onun həqiqiliyini təsdiq etmək məqsədilə onu komissiyada müqayisə etmək üçün saxlanılmış yoxlam vərəqi ilə müqayisə edirlər. (Seçki məcəlləsi –maddə 68.5).
- ☐ İstisna halında yaradılmış seçki məntəqəsinin seçki qutusunu (onun mövcudluğu təqdirdə) açın. Sayıcılar seçki qutusunda yoxlama vərəqinin mövcudluğunu yoxlayırlar və onun həqiqiliyini təsdiqetmək məqsədilə onu komissiyada müqayisə etmək üçün saxlanılmış yoxlama vərəqi ilə müqayisə edirlər.
- ☐ Əgər hər şey öz qaydasında olarsa sayıcılar əsas, aparılası vı istisna halında yaradılmış seçki məntəqəsinin seçki qutusundan masanın üzərinə tökülmüş zərfləri bir-birinə qarışdırırlar (Seçki məcəlləsi –maddə 68.5).
- ☐ Sayıcılara göstəriş verin ki, bülletenləri çeşidləsinlər. Komissiya ilə birlikdə şübhəli sayılan seçki bülletenlərin bir-bir baxın (Seçki məcəlləsi –maddə 69.5).
- ☐ Sayıcılara göstəriş verin ki, batil hesab olunmuş bülletenləri və hər bir seçki subyektinə verilmiş səsləri/seçki bülletenlərini hesablasınlar (Seçki məcəlləsi –maddə 69.6-9).
- ☐ Komissiyanın katibi ilə birlikdə səsvermə nəticələrinin yekun protokolunun məlumatlarının düzgünlüyünü yoxlayın:

Subyektlər tərəfindən Qazanılmış səslərin miqdarına + Batil hesab edilmiş bülletenlərin miqdarı < Seçicilərin imzalarının miqdarı

- ☐ Sayıcılara göstəriş verin ki, paketləşdirib möhürləsinlər: batil seçki bülletenlərini (başqa seçki məntəqisi üçün ayrılmış bülletenlər ayrıca möhürlənir), hər bir seçki subyektinin seçki bülletenini (paketi sayıcılar və sədr izmalayır (Seçki məcəlləsi –maddə 69.6-9).

- ☐ Komissiyanın katibi sizinlə razılaşma əsasında, səsvermənin nəticələrinin yekun protokolunu doldurur. Səsvermənin nəticələrinin yekun protokolunu tərtib edərkən qeydiyyatçıların izahatları nəzərə alınmalıdır (onun mövcudluğu təqdirdə). Komissiya katib yekun protokolunu seçki gününü Qeydiyyat kitadında qeydiyyatdan keçirir. Komissiyanın bütün üzvü səsvermə nəticələrinin yekun protokolunu imzalamağa məcburdular, bununla onların Seçki Məntəqəsində olmaqları təsdiq olunur. Səsvermə nəticələrinin doldurulmuş yekun protokolunu komissiyanın xüsusi möhürü ilə təsdiq edin. Səsvermənin nəticələrinin yekun protokolunun sürətini, düzəliş protokolu və qeydiyyatçıların yazılı izahatları ilə birlikdə (onun mövcudluğu təqdirdə) dərhal MSK-ya göndərin (Seçki məcəlləsi –maddə71.14).

- ☐ Seçki nəticələrini yekun protokolunun surəti ni verərkən (istənilən halda) katiblə birlikdə imza atmalı və komissiyanın xüsusi möhürü ilə təsdiq etməlisiniz (seçki məcəlləsi –maddə 71.8).

- ☐ Komissiyanın möhürünü ayrı-ayrı zərflərdə möhürləyin (komissiyanın xüsusi möhürünün möhürlənmiş zərfinə komissiyanın bütün üzvləri imza atırlar) (Seçki məcəlləsi –maddə 71.13); qeydiyyatçıların möhürləri, Qeydlər kitabı ərizə/şikayətlərlə birlikdə, Qeydiyyat jurnalı. Səsvermə nəticələrinin yekun protokolu möhürlənmir.
- ☐ Möhürlənmiş seçki sənədini böyük qutuya yerləşdiri və seçki komisiyasına aparın. Qutuday ayrı səsvermə nəticələrinin yekun protokolunu, qeydiyyat jurnalını, seçki gününün Qeydiyyat kitabını və ərizə-şikayətlərin möhürlənmiş paketlərini aparın.